# "28 May" NQÇİ-nin neftçiləri yeni uğurlara imza atır

"28 May" NQÇİ SOCAR-ın qabaqcıl neft və qazçıxarma idarələrindəndir. Dəniz neftçiləri 8 ayı uğurla başa vurub. Yanvar-avqust aylarında neft hasilatı üzrə 45 299 ton çox neft hasil edərək planı 101.4 faiz yerinə yetirmişdir. Neftin təhvili planına 101.2 faiz əməl olunaraq dövlətə plandan 37 745.174 ton çox neft təhvil verilmişdir.

Qaz hasilatı üzrə istehsalat tapşırığına 107.8 faiz əməl olunmuş plandan əlavə 260 431 min m³ artıq qaz hasil edilmişdir. Qaz təhvili üzrə tapşırıq 102.2 faiz yerinə yetirilmişdir, bu da nəzərdə tutulduğundan 69 797.877 min m³ çoxdur.

**2015-ci ilin 8 ayı ərzində fəaliyyətsiz fonddan istismara 6 quyu daxil edilmiş,** 5 neft quyusu, 1 qaz quyusu) və bunlardan 7 930 ton neft, 46 173 min m³ təbii qaz hasil edilmişdir.

İlin əvvəlindən fəaliyyətdə olan quyu fonduna 5 təzə neft quyusu 2 təzə qaz quyusu daxil edilmişdir. Bu quyulardan neft hasilatı 36 579 ton təşkil etmişdir ki, bundan da 4 040 tonu kondensat olmuşdur, təbii qaz hasilatı isə 35 822 min m³ təşkil edilmişdir.

Hasil olunan neftin 98.6%-i keçən ildən keçən quyuların, 1,1%-i təzə quyuların, 0,3%-i isə fəaliyyətsiz fonddan daxil olan quyuların hesabına olmuşdur. Çıxarılan neftin 78.4%-i qazlift, 21.6%-i isə fontan üsulu ilə çıxarılmışdır.

Fəaliyyətdə olan quyu fondunu stabil saxlamaq və neft hasilatını artırmaq məqsədi ilə 8 ay ərzində 35 geoloji tədbir keçirilib. Bu tədbirlər nəticəsində 83 307 ton neft hasil olunaraq nəzərdə tutulduğundan 27867 ton çox neft alınmışdır. 2015-ci ilin 8 ayı ərzində 280 texniki tədbir həyata keçirilmiş və nəticədə 13 355 ton neft alınmışdır.

Quyularda hasilatın səviyyəsinin saxlanması üçün geoloji-texniki tədbirlərlə yanaşı, əsaslı və cari təmirlərin də aparılması vacib amildir. Bu baxımdan da hesabat dövründə NQÇİ - də 15 yeraltı təmir və 61 əsaslı təmir işləri aparılmışdır. 2015-ci ilin 8 ayı ərzində aparılmış əsaslı təmir nəticəsində 111 111 ton neft hasil edilmişdir.

Yataqların əksəriyyəti istismarın son mərhələsində olduğundan, lay təzyiqinin saxlanması və layların neftveriminin artırılması məqsədilə laylara su vurulması üsulu tətbiq edilir. 2015-ci ilin 8 ayında bu məqsədlə laylara 1 960 900 m³ su vurulmuş və bunun hesabına 48 800 ton əlavə neft hasil olunmuşdur. Bundan başqa, NQÇİ-də 3-cü təsir üsulları hesabına 4 889 ton neft hasil olunmuşdur.

**2015-ci ilin 8 ayı ərzində idarəmizin istehsalat sahələrində texnoloji sistemin təkmilləşdirilməsi, işçilər üçün təhlükəsiz əmək şəraitinin yaradılması istiqamətində bir sıra işlər həyata keçirilmişdir.**

Özüllərarası qazlift sistemini fasiləsiz olaraq yüksək təzyiqli işçi agentlə təmin etmək məqsədilə 4 saylı Dərin dəniz özülündə Qazlift kompressor stansiyası quraşdırılıb istismara verilmişdir. Neft və qaz hasilatının sabit saxlanılması və artırılması üçün "Günəşli" yatağında 32 ədəd istismar quyusunun qazılması nəzərdə tutulan 7 saylı DDÖ-nün tikintisi davam etdirilmişdir. Yeni DDÖ-nün tikintisi ilə yanaşı, 8, 11 və 19 saylı özüllərdə əlavə quyuların qazılması davam etdirilmiş, 10 və 14 saylı özüllərdə də əlavə quyuların qazılması nəzərdə tutulmuşdur.

Çilov yatağında neft hasilatının sabit saxlanılması və artırılması məqsədilə 112 saylı meydançanın tikintisi başa çatmış və qazıma işlərinə başlanılmışdır və artıq 2 quyu istismara verilmişdir. Neft nəql sisteminin dayanıqlığının artırılması məqsədilə 8 saylı özüldən Neft daşları istiqamətinə yeni 20" neft xəttinin çəkilməsi üçün layihə tapşırığı hazırlanmışdır.

Neft-qaz yığım sisteminin təkmilləşdirilməsi məqsədilə son illər ərzində dərin dəniz özüllərində bir sıra işlər görülmüşdür ki, buna misal olaraq özüllərdə manifold sistemlərinin yenilənməsini göstərmək olar. Cari ilin ötən 8 ayı ərzində bu işlər davam etdirilmiş və 4 saylı özüldə manifold sistemi yenidən qurulmuş, 9 saylı özüldə təmir işi aparılmışdır.

Qazlift üsulu ilə işləyən quyularda işçi agentin itkilərinin azaldılması, quyuların iş rejiminə daha dəqiq nəzarətin təmin olunması üçün 14 saylı özüldə müasir avadanlıqlarla təchiz olunmuş yeni qaz paylayıcı qurğuların quraşdırılması davam etdirilmişdir.

SOCAR-ın təhlükəsizlik siyasətinə uyğun olaraq istehsalat sahələrində yanğın təhlükəsizliyinin təmin olunması məqsədilə neftin ilkin hazırlanması və nəqli sahəsində, neftin tam hazırlanması və təhvili sahəsində, 2 və 4 saylı özüllərdə müasir tipli avtomatlaşdırılmış yanğınsöndürmə sisteminin quraşdırılması üzrə iş davam etdirilmişdir.

Özüllərdə istismar olunan neft və qaz kondensat quyularının təhlükəsiz istismarını təmin etmək məqsədi ilə 8 ay ərzində "Günəşli" yatağının 2; 5; 8,10; 11; 15 və 19 saylı özüllərdə istismarda olan quyuların quyuağzı fontan yolkalarında olan pnevmo siyirtmələr yeni alınmış hidravliki siyirtmələrlə əvəzlənmişdir.

Neftin ilkin hazırlanması və nəqli sahəsində deemulsasiya prosesinin keyfiyyətini artırmaq məqsədilə 1 ədəd köhnə soba demontaj olunmuş, yeni alınmış 2 ədəd müasir PTB-10-64 sobalarının 1 ədədi quraşdırılmış, digərinin quraşdırılmasına hazırlıq aparılır.

Dərin dəniz özüllərində baş verə biləcək hər hansı texnoloji pozuntu və qəzalar zamanı hasilat quyularının avtomatik idarə edilməsi üçün özüllərdə quyuların məsafədən idarəetmə stansiyalarına qoşulma işləri yekunlaşmışdır.



Quyularda aparılan təmir işləri zamanı iş prosesinə nəzarətin gücləndirilməsi məqsədilə özüllərdə video-müşahidə kameralarının quraşdırılması işləri aparılır ki, buna misal olaraq 14 saylı özüldə 3 ədəd video-müşahidə kamerasının quraşdırılması işi yekunlaşmış və 24 saatlıq video nəzarət təmin olunmuşdur.

Günəşli yatağında 4, 6 və 14 saylı özüllərin kompleks əsaslı təmiri yekunlaşmış, 3, 10 və 11 saylı özüllərin əsaslı təmiri işləri davam etdirilir. 10 və 15 saylı özüllərdə yanğına qarşı mühafizə arakəsmələri əsaslı təmir olunmuşdur.

Çilov yatağında 123 saylı özüldə kompleks əsaslı təmir işləri başa çatdırılmış, 95 saylı özüldə yaşayış sahəsi yerləşən hissənin təmiri davam etdirilir.

"Günəşli" yatağında özüllərdə gəmilərin təhlükəsizlik qaydalarına uyğun qəbul olunması və yüklərin boşaldılması məqsədilə 5 ,10 və 15 saylı özüllərdə 1 ədəd yeni gəmiyanalma meydançası quraşdırılmış, 13 saylı özüldə də 2 ədəd gəmiyanalma meydançasının quraşdırılması nəzərdə tutulur.

Elektrik təhlükəsizliyinin təmin olunması və sahildən uzaq məsafədə yerləşən dərin dəniz özüllərinin fasiləsiz enerji ilə təmin olunması məqsədilə özüllərdə elektrik təchizatı üzrə əsaslı təmir işləri davam etdirilmişdir.

SOCAR-ın ekoloji siyasətinə uyğun olaraq Çilov adasında ətraf mühitin mühafizəsinin yaxşılaşdırılması üçün cari ilin 8 ayı ərzində 2000 ədəd zeytun ağacı əkilmişdir.

Ümumilikdə isə yaxın 5-6 il ərzində 54127 ədəd ağac və bitki kollarının əkilməsinin xüsusi qeyd etmək lazımdır.

Ətraf mühitin mühafizəsi, Xəzər dənizinin çirklənməsinin qarşısının alınması, məişət çirkab sularının təmizlənməsi məqsədilə bir sıra işlər görülmüşdür ki, buna misal olaraq "Günəşli" yatağında bütün özüllərdə bioloji qurğuların quraşdırılmasını göstərmək olar. Cari ilin 8 ayı ərzində Çilov adasında 112 saylı meydançada TOPAS 50 kiçik həcmli bioloji qurğu quraşdırılmışdır.

**İşçilərin sosial-məişət şəraitinin yaxşılaşdırılması, istirahət və boş vaxtlarının qayğı ilə əhatə olunması, asudə vaxtlarının səmərəli təşkili, qidalanmanın keyfiyyətinin artırılması və müasir standartlara uyğun şəraitin yaradılması istiqamətində bir sıra işlər görülmüşdür.**

Bütün özüllərdə işçilərin qidalanmaları üçün standartlara cavab verən normal şərait yaradılmışdır. Ərzaqların saxlanması, daşınması üçün müasir avadanlıqlarla təchiz olunmuş, onların saz vəziyyətdə istismarı təmin olunmuşdur. İstirahət yataq otaqları müasir məişət avadanlıqları,cihazları və texniki vasitələrlə təmin olunmuşdur. Özüllərdə beynəlxalq standartlara cavab verən sanitar-gigiyenik şərait yaradılmışdır. Hər özüldə iş yerlərində tibb məntəqələrinin fəaliyyəti gücləndirilmiş, lazımi preparatlarla təmin olunmuşdur.

İşçilərin daşınması sahəsində də işlər uğurla aparılmış, helikopterlərin, gəmilərin və nəqliyyat vasitələrinin istismarında təhlükəsizlik qaydalarına riayət olunmuş, işçilərin bütün təklifləri nəzərə alınmışdır. Şəraitin daha da yaxşılaşdırılması üçün 14 saylı özül və Qazın ilkin hazırlanması sahəsində yaşayış və məişət korpuslarının təmiri yekunlaşmaq üzrədir. Bütün özüllərdə yaşayış və məişət korpuslarında isitmə-soyutma sistemləri təzələnmiş, hazırda 9 və 10 saylı özüllərdə isitmə-soyutma sistemləri yenidən qurulur.

Çilov adasında yeni inşa olunan 150 yerlik akt zalı və 150 yerlik yeməkxananın tikintisi başa çatmış, mebel və məişət avadanlıqları quraşdırılmışdır.

SOCAR-ın Əməyin mühafizəsi və təhlükəsizlik texnikası üzrə siyasətinə uyğun olaraq 2015-ci ilin 8 ayı ərzində işçilərin əmək və sosial şəraitinin yaxşılaşdırılması, sağlam və təhlükəsiz iş yerlərinin yaradılması, ağır fiziki işlərin azaldılması, xüsusi geyim, xüsusi ayaqqabı və digər qoruyucu vasitələrlə təmin olunması istiqamətində böyük işlər görülmüşdür. İşçilərin təhlükəsizlik texnikası üzrə maarifləndirilməsi, mütəxəssislərin iştirakı ilə slayd formasında xüsusi mövzularda təqdimatların keçirilməsi ənənəvi hal almışdır.

İstehsalat sahələrində baş verə biləcək qəzalar və bədbəxt hadisələr zamanı hadisə nəticələrinin operativ aradan qaldırılmasına hazırlıq məqsədilə 2015-ci ilin 8 ayı ərzində Fövqəladə Hallar Nazirliyinin nümayəndələri ilə özüllərdə müxtəlif ssenarilər üzrə çoxsaylı təlim məşqlər həyata keçirilir. İdarə tərəfindən SOCAR-ın Əməyin mühafizəsi və təhlükəsizlik texnikası üzrə siyasətinə uğurla əməl olunması nəticəsində 2015-ci ilin 8 ayı ərzində heç bir bədbəxt hadisə baş verməmişdir. Bir sözlə, idarəmizin kollektivi neftçilərin peşə bayramını uğurla qarşılayır.


**Rövşən QARAYEV,**
**"28 May" NQÇİ-nin rəisi.**